«Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında yardım göstərilməsinin asanlaşdırılmasına dair Əməkdaşlıq haqqında» 11 may 2000-ci il tarixli Sazişin vergi məsələləri üzrə tətbiqinə dair

# QAYDALAR

## 1. Ümumi anlayışlar

**Təşkilat** – ABŞ Hökumətinin istənilən təşkilatı da daxil olmaqla, ABŞ Hökumətinin yardım proqramlarını həyata keçirən istənilən təşkilat (hüquqi şəxs), onun nümayəndəlik və ya filialı;

**Şəxs** - ABŞ Hökumətinin yardım proqramlarını həyata keçirən istənilən fiziki şəxs;

**İcraçılar** - ABŞ Hökumətinin yardım proqramlarının həyata keçirilməsi üçün məsuliyyət daşıyan və bilavasitə həmin proqramların həyata keçirilməsi çərçivəsində Azərbaycan Respublikasında fəaliyyət göstərən istənilən təşkilat və ya şəxs;

**Azərbaycan Respublikasının vətəndaşı** - Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, onun vətəndaşı sayılan istənilən fiziki şəxs;

**Azərbaycan Respublikasının adi rezidenti** - Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, onun rezidenti sayılan istənilən fiziki şəxs;
(Azərbaycan Respublikasının vətəndaşı olmayan və yalnız həmin yardım proqramlarının icrası ilə bağlı Azərbaycana gələrək, sonradan rezident olan fiziki şəxs Azərbaycan Respublikasının adi rezidenti sayılmır);

**Təşkilatın personalı** – təşkilatın muzdlu işçisi (əməkdaşı) olan istənilən fiziki şəxs;

**Yardım alanlar** - ABŞ Hökumətinin yardım proqramları çərçivəsində Azərbaycan Respublikasında yardım, o cümlədən qrant alan istənilən hüquqi və ya fiziki şəxs;

**Vergilər** – Azərbaycan Respublikası qanunvericiliyinə əsasən müəyyən edilmiş vergilər;

**Əlavə dəyər vergisindən azad olunma** – əlavə dəyər vergisindən tam azad olunmaqla, əlavə dəyər vergisinin əvəzləşdirilməsi və ya büdcədən qaytarılması hüququnun verilməsi.

## 2. Azadolmalar

Sazişə əsasən, ABŞ Hökumətinin Azərbaycana yardım proqramının icrası çərçivəsində aşağıdakı azadolmalar nəzərdə tutulur:

1. İcraçılar bütün vergilərdən, o cümlədən yardım proqramlarının yenidən maliyyələşməsinə yönəldiyi təqdirdə:
   a) mikro-maliyyələşməyə kapital qoyuluşlarından faizlərdən əldə olunan gəlirlər üzrə mənfəət (gəlir) vergisindən;
   b) dəyərlərin satılaraq, pul vəsaitlərinə çevrilməsindən (monetizasiyadan) əldə olunan gəlirlər üzrə mənfəət (gəlir) vergisindən və əlavə dəyər vergisindən azad edilirlər.
   İcraçılar həmçinin yardım proqramlarının icrası ilə bağlı alınmış mallar (işlər, xidmətlər) üzrə əlavə dəyər vergisindən azad edilirlər.
2. Təşkilatın (icraçının) Azərbaycan Respublikasının vətəndaşı və ya adi rezidenti olmayan personalı
   a) yardım proqramları çərçivəsində əldə edilən gəlir üzrə vergilərdən;
   b) şəxsi istifadə üçün alınan mallara (işlərə, xidmətlərə) görə əlavə dəyər vergisindən azad edilirlər.
3. ABŞ Hökuməti tərəfindən yardım alanlar Azərbaycan Respublikasında göstərilən bu cür yardım, o cümlədən qrant üzrə bütün vergilərdən azad edilirlər.

## 3. Əlavə dəyər vergisi üzrə

ABŞ Hökumətinin Azərbaycana yardım proqramları çərçivəsində icraçılara, habelə, təşkilatın (icraçının) Azərbaycan Respublikasının vətəndaşı və ya adi rezidenti olmayan personalına şəxsi istifadə üçün malların (işlərin, xidmətlərin) satışı əlavə dəyər vergisi ilə birgə təqdim edilməli və sonradan ödənilmiş vergi məbləğləri büdcədən geri qaytarılmalıdır.

Ödənilmiş verginin qaytarılması üçün malların (işlərin, xidmətlərin) satışı və əlavə dəyər vergisinin ödənilməsi satıcılar tərəfindən doldurulan vergi hesab-fakturaları ilə təsdiq edilməlidir.

## 4. Artıq ödənilmiş vergilərin əvəzləşdirilməsi və ya qaytarılması

Sazişə əsasən azad olan, lakin ödənilmiş olan vergilər, o cümlədən əlavə dəyər vergisi Vergi Məcəlləsinin 87-ci maddəsinə və Nazirlər Kabinetinin 23 fevral 2001-ci il tarixli 48 saylı Qərarı ilə təsdiq edilmiş «Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinə qaytarılması» Qaydalarına əsasən digər vergilərlə, o cümlədən fiziki şəxslərin gəlir vergisi ilə əvəzləşdirilə yaxud qaytarıla bilər.

Artıq ödənilmiş vergilərin əvəzləşdirilməsi və ya qaytarılması üçün icraçı tərəfindən vergi orqanlarına həmçinin ilkin olaraq hər müqavilə üzrə aşağıdakı sənədlər təqdim edilməlidir:

- ABŞ-ın Bakıdakı Səfirliyi tərəfindən 1 saylı Əlavədə göstərilən forma üzrə verilmiş bildiriş;
- yardım proqramının yerinə yetirilməsinə dair müqavilələrin surəti.

Təşkilatın (icraçının) Azərbaycan Respublikasının vətəndaşı və ya adi rezidenti olmayan personalı tərəfindən isə vergi orqanlarına həmçinin ilkin olaraq aşağıdakı sənədlər təqdim edilməlidir:

- ABŞ-ın Bakıdakı Səfirliyi tərəfindən 2 saylı Əlavədə göstərilən forma üzrə verilmiş bildiriş;
- muzdlu işə dair əmək müqaviləsinin surəti.

Əlavə dəyər vergisinin əvəzləşdirilməsi və ya qaytarılması üçün isə vergi hesab-fakturaları və ya onların surətləri də əlavə edilməlidir.

Vergi orqanları zəruri hallarda, vergi hesab-fakturalarına dair ödəniş sənədlərini (bank sənədləri, kassa çeki, qəbz və ya digər ödənişi təsdiq edən sənədlər) də tələb edə bilər.

Artıq ödənilmiş vergilərin qaytarılması barədə vergi orqanlarına təqdim edilmiş ərizə 7 təqvim günü ərzində baxılır və rəy hazırlanaraq artıq ödəmənin qaytarılmalı olduğu müvafiq maliyyə orqanına verilir.

Artıq ödənilmiş vergilər 14 təqvim günü ərzində qaytarılır. Bu müddət vergi ödəyicisinin bu barədə ərizə verdiyi gündən vəsaitin müvafiq dövlət xəzinədarlığının hesabından çıxdığı günədək olan dövrü əhatə edir.

## 5. Vergi qanunvericiliyinə riayət edilməsi

ABŞ Hökumətinin Azərbaycana yardım proqramının icrası çərçivəsində fəaliyyət göstərən icraçılar, habelə, təşkilatların personalı və istənilən digər şəxslər qanunla və ya sazişlə müəyyən edilən azadolmalar istisna edilməklə, vergi qanunvericiliyinə əməl etməli və bununla bağlı vergi orqanlarının tələblərinə riayət etməlidirlər.

Vergi qanunvericiliyinə riayət edilməsinə həmçinin vergi orqanlarında qeydiyyat, vergi agenti funksiyalarının yerinə yetirilməsi və zəruri olan məlumatların, arayışların və sənədlərin təqdim edilməsi aiddir.

## 6. Vergi və maliyyə orqanlarının məsuliyyəti

Vergi və maliyyə orqanlarının bu Qaydaların icrasına məsul şəxsləri Qaydalara riayət edilməsinə, habelə, kommersiya sirrinin qorunmasına görə qanunvericiliklə müəyyən edilən qaydada məsuliyyət daşıyırlar.

| | |
|---|---|
| Azərbaycan Respublikası<br>Maliyyə Naziri | Azərbaycan Respublikası<br>Vergilər Naziri |
| Ə. Ələkbərov | F. Məmmədov |
| N- 03-01/3-99 | N- DB/01-22/69-39 |
| 18 yanvar 2002-ci il | 13 yanvar 2002-ci il |

Əlavə 1

Amerika Birləşmiş Ştatlarının Bakıdakı Səfirliyi

Azərbaycan Respublikası
Vergilər Nazirliyinə

**BİLDİRİŞ**

Bildirilir ki, aşağıda göstərilən icraçı «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında yardım göstərilməsinin asanlaşdırılmasına dair Əməkdaşlıq haqqında» 11 may 2000-ci il tarixli Sazis çərçivəsində fəaliyyət göstərir.

**1. İcraçının**

1. Tam adı ______________________________

______________________________

2. Ünvanı ______________________________

3. İnkorporasiya ölkəsi ______________________________

4. VÖEN ______________________________

**2. Yardım proqramının icrasına dair müqavilənin**

1. Nömrəsi ______________________________

2. Tarixi ______________________________

3. Məzmunu ______________________________

4. İcra müddəti

| | | 200_ -ci il |
|---|---|---|

tarixdən

| | | 200_ -ci il |
|---|---|---|

tarixədək

---

**ABŞ-ın Bakıdakı Səfirliyi**

Səlahiyyətli şəxsin

1. Adı ____________

2. Soyadı ____________

3. Vəzifəsi ____________

İmzası ____________

M.y.

**İcraçı**

Səlahiyyətli şəxsin

Adı ____________

Soyadı ____________

Vəzifəsi ____________

İmzası ____________

M.y.

Tarix

| | | 200_ - ci il |
|---|---|---|

Əlavə 2

**Amerika Birləşmiş Ştatlarının Bakıdakı Səfirliyi**

---

**Azərbaycan Respublikası**
**Vergilər Nazirliyinə**

# BİLDİRİŞ

Bildirilir ki, aşağıda göstərilən şəxs «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında yardım göstərilməsinin asanlaşdırılmasına dair Əməkdaşlıq haqqında» 11 may 2000-ci il tarixli Saziş çərçivəsində fəaliyyət göstərən təşkilatın (icraçının) personalına daxildir.

**İşçinin**

1. Adı ____________________
2. Soyadı ____________________
3. Personalı olduğu təşkilatın (icraçının) tam adı ____________________
4. Vezifəsi ____________________
5. Vətəndaşı olduğu ölkə ____________________
6. Azərbaycan Respublikasında çalışmağa başladığı tarix

| | | |
|---|---|---|
| | | 200_ -ci il |

7. Təşkilatla (icraçı ilə) əmək müqavilesinin müddəti

| | | |
|---|---|---|
| | | 200_ -ci il |

tarixdən

| | | |
|---|---|---|
| | | 200_ -ci il |

tarixədək

---

**ABŞ-ın Bakıdakı Səfirliyi** **İşçi**

Səlahiyyətli şəxsin

1. Adı ____________
2. Soyadı ____________
3. Vəzifəsi ____________

İmzası ____________ İmzası ____________

M.y.

Tarix

| | | |
|---|---|---|
| | | 200_ - ci il |